


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

30 dekabr 2025-ci il
Çərşənbə axşamı

1933-cü ildən çıxır
№ 51 (3763)


# Hər qələbədə Vətən ruhu




## Bu il idmançılarımız beynəlxalq arenalarda tarixi nəticələr əldə ediblər

> *“Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır”*

Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə Prezident İlham Əliyev çıxış edib.Dövlətimizin başçısı bildirib ki, “Bu il beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb”.

Bu göstəricilər Azərbaycanda idmana göstərilən diqqətin və həyata keçirilən ardıcıl dövlət siyasətinin nəticəsi kimi formalaşıb. Əvvəlki illərlə müqayisədə medalların sayı artıb, bu da idmanın inkişafının təbii göstəricisi kimi dəyərləndirilib.

Ölkədə idman infrastrukturunun sürətlə genişləndirildiyini diqqətə çatdıran Prezident vurğulayıb ki, son illərdə bir çox idman obyektləri tikilərək istifadəyə verilib, yeni layihələr reallaşdırılıb. Gəncə və Yevlax şəhərlərində Olimpiya İdman Komplekslərinin tikintisi başa çatdırılıb və beləliklə, bölgələrdə bu tip obyektlərin sayı 46-ya çatdırılıb. Nəticə etibarı ilə yaradılan şərait gənclərin idmana cəlb olunmasına ciddi təsir göstərib.

Dövlət başçısı MDB ölkələrinin üçüncü oyunlarının Azərbaycanda yüksək səviyyədə keçirildiyini xatırladaraq oyunların bir neçə şəhərdə təşkil edilməsinin ölkəmizin təşkilatçılıq potensialını nümayiş etdirdiyini söyləyib. Qonaqlar tərəfindən yaradılmış şərait yüksək qiymətləndirilib, bölgələrimizin gözəlliyi və imkanları xüsusi qeyd edilib. Komanda hesabında Azərbaycan ikinci yerə layiq görülüb, idmançılarımız uğurla çıxış ediblər.

Bununla yanaşı, UFC üzrə beynəlxalq turnirin və Formula 1 yarışının keçirilməsi də xüsusi diqqətə çatdırılıb. Bildirilib ki, bu yarışlar böyük auditoriya tərəfindən izlənilib, ölkəmizin imici daha da gücləndirilib.

Şahdağda ilk dəfə Xizək üzrə Dünya Kubokunun keçiriləcəyi haqqında məlumat verən Prezident yeni xizək traslarının istifadəyə verilməsi, turizm imkanlarının genişləndirilməsi və yeni iş yerlərinin yaradılması barədə danışıb. Şahdağ regionunun inkişafının ölkə iqtisadiyyatına da müsbət təsir göstərdiyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Bakı şəhərinin “Dünyanın İdman Paytaxtı” seçilməsi xüsusi qürur mənbəyi kimi qiymətləndirilib. Bu qərarın idman sahəsində görülmüş işlərə verilən yüksək beynəlxalq dəyər olduğunu vurğulayan Prezident əlavə edib ki, Azərbaycanın idman şöhrətini ucaldan insanlar dövlət tərəfindən qiymətləndirilməlidir və bu istiqamətdə ənənə davam etdirilir.

# Daxili işlər orqanlarının şəxsi heyətinə



**Əziz həmkarlar!**

2025-ci il Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq qaydasının, qanunçuluğun və dövlətçiliyin möhkəmləndirilməsi baxımından daha əlamətdar olmuş, şəxsi heyət cinayətkarlığa qarşı mübarizədə yüksək peşəkarlıq, qətiyyət və prinsipial mövqe nümayiş etdirmiş, vətəndaşların hüquq və azadlıqlarının keşiyində mərdliklə dayanmışdır.

İşğaldan azad edilmiş ərazilərdə də əhalinin normal həyat və fəaliyyətinin qurulması, bərpa və quruculuq işlərinin sabit və təhlükəsiz mühitdə aparılması üçün asayiş və təhlükəsizlik etibarlı qorunmuş, bütövlükdə qanunla müəyyən edilmiş funksiyaların icrası zamanı göstərilən operativlik və yüksək intizam cəmiyyətin daxili işlər orqanlarına inamının daha da möhkəmlənməsinə xidmət etmişdir. Öz andına həmişə sadiq olan şəxsi heyətimizin nümunəvi fəaliyyəti möhtərəm Prezident tərəfindən yüksək qiymətləndirilərək xidmətdə fərqlənənlər dövlət mükafatlarına layiq görülmüşdür.

Əminəm ki, qarşıdakı ildə də məsul və şərəfli vəzifələrinizi layiqincə yerinə yetirəcək, ölkə rəhbərliyinin yüksək etimadını doğruldacaqsınız.

Xalqımızın birliyini, iradəsini təcəssüm etdirən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid və həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini ürəkdən təbrik edir, hamınıza möhkəm can sağlığı, xoşbəxtlik və uğurlar arzulayır, Azərbaycan Respublikasına sədaqətli xidmətə görə təşəkkür edirəm!

**Vilayət Eyvazov**
**Azərbaycan Respublikasının daxili işlər naziri**
**general-polkovnik**

## "Daxili qoşunlar haqqında" qanun təsdiqlənib

### Yeni qanun fəaliyyətin hüquqi əsaslarını müəyyənləşdirir

Prezident İlham Əliyev DİN-in “Daxili qoşunlar haqqında” Qanununu təsdiqləyib. Sənəd Azərbaycanın konstitusiya quruluşunun, suverenliyinin, ictimai qaydanın və təhlükəsizliyin qorunması sahəsində daxili qoşunların fəaliyyətini tənzimləyir.

Qanunda xidmətin prinsipləri, səlahiyyət və vəzifələr, idarəetmə mexanizmi, maddi-texniki təminat, fiziki qüvvə və xüsusi vasitələrin tətbiqi şərtləri kimi məsələlər təsbit olunub. Sənəd altı fəsil və otuz maddədən ibarətdir.

## İdmançılarımız mükafatlandırılıb

### Prezident idman xadimlərini təltif edib

Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə idmanın inkişafında xüsusi xidmətləri olan idmançılar və mütəxəssislər mükafatlandırılıb.

Prezident İlham Əliyev DİN İdman Cəmiyyətinin sədri Mövlud Mirəliyeva “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adını təqdim edib. Eduard Məmmədov isə “Tərəqqi” medalı ilə təltif olunub. Dövlət başçısı idmançılarla söhbət edib və xatirə şəkli çəkdirib.

## Xankəndidə Zəfər parkı

### Yeni park qələbənin rəmzidir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər. Ümumi sahəsi 9 hektar olan parkın təməli fevralda qoyulmuşdu.

44 pilləkənli giriş, 44 metr hündürlüyündə Zəfər tağı, sərgi məkanları, yaşıllıq zolaqları və müasir infrastruktur yaradılıb. Park həm Vətən müharibəsində qələbənin rəmzi, həm də sakinlərin asudə vaxtının səmərəli təşkili üçün mühüm layihə kimi dəyərləndirilir.

## "Bakı Ağ Şəhər”də yenilik

### Meydan və piyada körpüsü istifadəyə verilib

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 29-da "Bakı Ağ Şəhər"də olublar.

Dövlətimizin başçısı, birinci xanım və qızları burada "Qarabağ atları" heykəltəraşlıq kompleksi, həmçinin Babək kvartalında həyata keçirilən işlər ilə tanış olub, Palıd meydanı parkında ilk palıd ağaclarını əkib, Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak ediblər.


Bayramın mübariz keşikçiləri.............2

Polis vətəndaşın güvən yeridir............3

Unudulan cinayət yoxdur.....................3

Gözlərin kriminalistik analizi...............4

# Daxili işlər naziri vətəndaş qəbulu və sıra baxışı keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 2026-cı il yanvarın 6-da Quba rayonunda növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Quba Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 05.01.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı isə vətəndaş qəbulundan öncə, yəni yanvarın 6-da 08:00-da Quba Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### 907-ci düzəlişin tam ləğvinə doğru

907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsinin mətni ABŞ Konqresinin saytında yerləşdirilib. Layihədə deyilir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən bəri Amerika Birləşmiş Ştatlarının və onun müttəfiqlərinin sadiq tərəfdaşı olaraq qalır, Azərbaycan müharibə dövründə də, sülh dövründə də mühüm əməkdaşlığı təmin edib. Azərbaycan Cənubi Qafqazda sülhü prioritet hesab etdiyini açıq şəkildə nümayiş etdirmişdir və elə bir sülh sazişi əldə edib ki, bu sazişdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının müvafiq sərhədləri və ərazi bütövlüyü qarşılıqlı şəkildə razılaşdırılıb.

### Yeni ili yeni evlərdə qarşılayacaqlar

Xocalının Şuşakənd kəndinə 20 ailə - 83 nəfər, Xanyurdu kəndinə 12 ailə - 50 nəfər, Xocavəndin Qırmızı Bazar qəsəbəsinə 37 ailə - 169 nəfər, Zəngilanın Məmmədbəyli kəndinə isə 29 ailə - 147 nəfər köçürülüb. Ağdamın Xıdırlı kəndinə 278 nəfərdən ibarət 64, Hadrut qəsəbəsində isə 51 nəfərdən ibarət 13 ailəyə mənzillərin açarları təqdim olunub.

### Əlillərin avtomobillə təminatı başa çatıb

Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara 6,9 min mənzil, müharibə ilə əlaqədar əlilliyi olanlara 567 avtomobil verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb. Bununla da növbədə olanların avtomobillə təminatı başa çatıb.

### Əlli manatlıq əskinas yenilənib

Mərkəzi Bankın sədri Taleh Kazımovun imzasının əks olunduğu yenilənmiş 50 manatlıq kağız pul nişanları tədavülə buraxılıb. Bankdan bu barədə bildirilib ki, imza pul nişanının ön tərəfindən sol yuxarı küncdə təsvir edilib. Nişanın üzərində həmçinin "2025" buraxılış ili əks olunub.

### Nə qədər vəkil var?

Azərbaycanda vəkillərin sayı 2 min 836-ya çatıb. Vəkillər Kollegiyasının sədri Anar Bağırovun sözlərinə görə, qadın vəkillərin sayı 633, kişi vəkillərin sayı isə 2 min 203 nəfərdir. Ümumilikdə 2025-ci il ərzində keçirilmiş test imtahanlarında 823 namizəd iştirak edib. Onlardan 420-si uğur qazanıb.

### Azərbaycan MDB-də liderdir

Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB ölkələri arasında 1-ci, dünyanın 141 ölkəsi arasında isə 24-cü yerdə qərarlaşıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3 min 720,5 kilometr təşkil edən 64 adda avtomobil yolunun tikintisi və 1 hava limanının inşası üzrə layihələr icra edilir.

# Bayramın mübariz keşikçiləri

## Polis sabitliyi gücləndirilmiş iş rejimində qoruyacaq












Adətən bayram günlərində ölkənin bütün şəhər və qəsəbələrində xüsusi canlanma müşahidə olunur. Kimi ailəsi ilə istirahət edir, kimi ictimai məkanlarda əylənir, kimi də səfərə çıxır... Şəhərlərdə bayram ovqatı indidən də hiss olunur. Bu şəraitdə ictimai təhlükəsizliyin, nizam-intizamın və vətəndaşların rahatlığının təmin edilməsi ön ümdə vəzifəyə çevrilir. Belə anlarda gücləndirilmiş iş rejimində xidmət aparan polis əməkdaşları həm də insanların bayram sevincinin keşiyini çəkirlər.

### Asayişin keşikçiləri, polad sipərləri

Bu fotolardakı xidmət epizodları polis əməkdaşlarının gündəlik fəaliyyətinin yalnız bir fraqmentini əks etdirir. Metro stansiyalarında, dəmiryolu vağzallarında, park və meydanlarda, yol hərəkəti istiqamətlərində xidmət aparan polis əməkdaşları insanların təhlükəsiz hərəkəti, ictimai qaydanın qorunması və ümumiyyətlə, mümkün risklərin vaxtında qarşısının alınması üçün polad sipərdirlər. Onların ayıq-sayıq xidməti, nizam-intizama tələbkarlığı və eyni zamanda vətəndaşlara diqqət və qayğısı bunun bariz göstəricisidir.

Təbii ki, bayram günlərində yol hərəkətinə nəzarət üzrə görülən tədbirlər yol polisinin fəaliyyətinə xüsusi ilə diqqət çəkir. Yollarda hərəkətin artması və hava şəraitindən irəli gələn amilləri nəzərə alaraq yol polisi əməkdaşlarının öz xidmətləri ilə əsl fədakarlıq nümunəsi sərgilədiklərini qeyd etməliyik. Məhz onların sayəsində qəza hallarının qarşısı alınır və insanların təyinat yerlərinə çatmasına şərait yaradılır. Bu, həm sürücülərin, həm də piyadaların təhlükəsiz hərəkətinin arxasında dayanan yüzlərlə saatlıq növbələr, gərginlik, məsuliyyət və peşəkarlıq deməkdir.

### Sabitliyin arxasında gərgin əmək dayanır

İctimai yerlərdə aparılan xidmət isə təkcə nəzarət xarakteri daşımır. Polis əməkdaşları zəruri hallarda vətəndaşlara istiqamət verir, kömək göstərir, məlumatlandırma aparır, itən əşyaların və ya uşaqların tapılmasında operativ tədbirlər görürlər. Bayram tədbirlərində uşaqlarla, yaşlılarla və turistlərlə aparılan nəzakətli ünsiyyət polisin cəmiyyət üçün açıq və etibarlı qurum kimi qəbul olunmasına mühüm töhfə verir.

Xidmətin digər bir tərəfi profilaktik mahiyyət daşıyır. Mümkün hüquqpozmaların qarşısının alınması, ictimai asayişin pozulmasına şərait yarada biləcək risklərin vaxtında aşkarlanması və zərərsizləşdirilməsi polisin peşəkar hazırlığının göstəricisidir. Bu baxımdan bayram günlərində asayişin pozulmaması bəzən elə görülən işlərin sakit və görünməz qalmasının nəticəsi olur.

### Hər şey Vətən və vətəndaş üçün…

Qeyd etmək lazımdır ki, polis əməkdaşlarının fəaliyyəti çox zaman ailədən və şəxsi istirahətdən uzaqda, gecə-gündüz dəmədən həyata keçirilir. Əsas məqsəd isə dəyişməz qalır: hər bir vətəndaşın təhlükəsizliyini təmin etmək, ictimai sabitliyi qorumaq, insanların bayram günlərini arxayın və rahat keçirməsinə şərait yaratmaq. Bu yolda onlar bayramın mübariz keşikçilərinə çevrilirlər.

Belə əzmkar xidmət bayram günlərinin etibarlı zəmanətidir. İctimai asayişin qorunması hər birimizin rifahına yönəlmiş mühüm dövlət missiyasıdır. Buna görə də bu anlarda polis forması yalnız vəzifəni deyil, həm də etibarı, güvəni, vətəndaşa verilən sözü, Vətən qarşısında içilən andı təmsil edir. Bayram işıqları altında gəzən hər kəs də yaxşı bilir ki, bu təhlükəsizliyin arxasında fədakar Azərbaycan polisi dayanır.

*Rəşad Mehtiyev*
*polis leytenantı*

# Niyə məhz "E-Polis"?

## Vətəndaş məmnunluğu xidmətimizin göstəricisidir

Artıq polisin rəqəmsal xidmətləri vətəndaşa bir toxunuş qədər yaxındır. Rəqəmsal mühitin sürətlə inkişaf etdiyi dövrdə ictimai təhlükəsizliyin təmininə yönələn xidmətlərin mobil platformalara daşınması vacib zərurətdir. "E-Polis" məhz bu ehtiyacın cavabıdır. Tətbiqi yükləməklə hər kəs öz təhlükəsizliyinin formalaşmasında aktiv tərəfdaş olur, polisin rəqəmsal xidmətlərindən daha səmərəli və şəffaf yararlana bilir.

### Rəqəmsal əlçatanlıqdır, vaxta qənaətdir

Ənənəvi qaydada polisə müraciət etmək, sənəd hazırlamaq, izahat vermək çox vaxt aparır və əlavə xərclər yaradır. "E-Polis" isə bu prosesləri bir ekranın arxasında birləşdirib. İstənilən vaxt məlumat göndərmək, müraciətin gedişatını izləmək, cavabları elektron formada almaq mümkündür. Bu həm fiziki təmasları azaldır, həm də xidmətin məsuliyyətini artırır.

Polis–vətəndaş münasibətlərində şəffaflıq və operativliyin daha da gücləndirilməsi tətbiqin əsas üstünlüyüdür. Vətəndaş cərimə məlumatlarını rahatlıqla yoxlaya, avtomobili ilə bağlı axtarışda olub-olmaması və ya yüklü vəziyyəti barədə məlumat əldə edə, ölkədən getmək hüququnun məhdudlaşdırılıb-məhdudlaşdırılmadığını öyrənə bilir. Bununla yanaşı, zədələnmə və axtarışla bağlı arayışları onlayn şəkildə almaq, elektron sənədlərdən istifadə etmək, Daxili İşlər Nazirliyinə elektron müraciət göndərmək, hətta rəhbərliyin qəbuluna yazılmaq mümkündür. Bu xidmətlər vətəndaşın dövlət qurumu ilə ünsiyyətini sadələşdirir, prosesləri daha aydın və izlənilə bilən edir.

Bu yaxınlarda tətbiqdə yeniliklər də edildi. Tez-tez verilən suallara operativ cavab tapmaq üçün artıq süni intellektə əsaslanan çat-botdan yararlanmaq olur. Tətbiq həm "App Store", həm də "Google Play" vasitəsilə asanlıqla yüklənir.

### "E-Polis"də məxfilik tam qorunur

"E-Polis" təkcə müraciət qəbulu üçün deyil, maarifləndirici funksiyalara görə də seçilir. Məsələn, tətbiq vasitəsilə sürücülük vəsiqəsinin dəyişdirilməsi kimi xidmətlər haqqında məlumat verir, vətəndaşların bu prosesləri necə həyata keçirəcəyini izah edir. Elektron müraciət (şikayət) sistemlərini təqdim edərək vətəndaşların hüquqlarını və DİN-in fəaliyyət istiqamətlərini daha yaxından anlamasına kömək edir.

Məlumatların məxfiliyinin qorunması xüsusilə diqqət mərkəzində saxlanıldığına görə istifadəçinin məlumatları əmin əllərdə qorunur. Şəxsi məlumatlar etibarlı mexanizmlərlə saxlanılır, üçüncü şəxslərə ötürülmür və fiziki sənədlərin itirilməsi riski aradan qalxır. Bu da rəqəmsal mühitdə güvənin formalaşmasına xidmət edir.

"E-Polis"in daha bir üstünlüyü onun daim təkmilləşdirilməsi və müasir tələblərə uyğun yeniliklərin əlavə olunmasıdır. Yəni, vətəndaşların polisin rəqəmsal xidmətlərinə əlçatanlığı getdikcə genişlənir.

# Gecədən başlayan xidmət...

## Polis operativ tədbirlər görür, yollarda təhlükəsizlik təmin olunur












Dekabrın 28-də gecə saatlarında ölkə ərazisində, əsasən, dağlıq və dağətəyi bölgələrdə müşahidə olunan qeyri-sabit hava şəraiti ilə əlaqədar polis əməkdaşları avtomobil yollarında gücləndirilmiş rejimdə xidmət təşkil edib, zəruri tədbirlər görüblər.

İşğaldan azad olunmuş ərazilər də daxil olmaqla ölkəboyu qeyri-sabit havanın müşahidə olunduğu digər bölgələrdə təhlükəsizliyin təmin olunması məqsədilə tədbirlər davam etdirilib. Hava şəraitinin dəyişdiyi andan etibarən təşkil olunan fasiləsiz xidmət zamanı digər dövlət qurumları ilə birgə yollar və yol nişanları qardan və buzdan təmizlənib, sürüşmə ehtimalı olan ərazilərdə nəzarət gücləndirilib.

Mövcud hava şəraiti ilə əlaqədar daxil olan çağırışlara operativ reaksiya verilib, vətəndaşlara zəruri köməklik göstərilib. Görülən tədbirlər nəticəsində sürücü və piyadaların mənzil başına daha təhlükəsiz şəkildə çatması təmin edilib.

Dağlıq və dağətəyi rayonlarda qarın yağması, eləcə də havanın temperaturunun aşağı düşməsi nəticəsində yol şəraitinin mürəkkəbləşməsi ilə bağlı sürücülərə çağırış edən polis xüsusilə axşam saatlarında yol örtüyündə gizli buzlaşma riskindən qaynaqlana biləcək qəza ehtimalları barədə məlumat verib.

Yol polisi sürücülərə qış mövsümünə uyğun təchiz edilməmiş, protektor hündürlüyü normadan az olan, işıqlandırma və isitmə sistemləri nasaz avtomobillərlə riskli istiqamətlər üzrə hərəkətə çıxmamağı tövsiyə edib.

# Polis vətəndaşın güvən yeridir

## Azyaşlı ailəsinə təhvil verildi…

Yasamal rayonunda nəzarətsiz qalan azyaşlının tapılaraq ailəsinə verilməsindən bir neçə nəticə çıxarmaq mümkündür. Bu, kimin üçünsə adi bir hadisə təsiri bağışlaya bilər. Hadisəyə təhlükəsizlik baxımından yanaşdıqda isə polislə vətəndaş arasında qarşılıqlı etimad və operativ əməkdaşlıq örnəyidir.

Belə görünür ki, sürücünün ayıqlığı, məsuliyyəti və polisin peşəkarlığı bir-birini tamamlayaraq baş verə biləcək mümkün faciənin qarşısını alıb.

Xatırladaq ki, avtobus sürücülərindən biri hərəkət zamanı avtomobillər arasında təkbaşına qalan azyaşlı uşağı görərək dərhal avtobusu saxlayıb. O, ətrafı diqqətlə yoxlayaraq uşağın tək olduğunu müəyyən edib və onun təhlükəsizliyini təmin edib.

Vətəndaş məsuliyyətinin nümunəsi kimi sürücü dərhal Daxili İşlər Nazirliyinin "102" xidmətinə məlumat verib. Qısa müddət ərzində əraziyə gələn polis əməkdaşları uşağı təhvil alaraq lazımi yoxlamalar aparıblar. Araşdırma nəticəsində məlum olub ki, uşaq bağçadan nəzarətsiz şəkildə çıxaraq müəyyən məsafə qət edib. Tezliklə valideynləri tapılıb və azyaşlı ailəsinə qaytarılıb.

Bu hadisə bir daha göstərdi ki, ölkəmizdə polis–vətəndaş münasibətləri qarşılıqlı inam və güvənə əsaslanır. Vətəndaşlıq borcunu layiqincə yerinə yetirən hər kəs təhlükəsizliyə töhfə verə bilər və bundan bütün cəmiyyət qazanar. Əslində polislə sadə insanları həmişə eyni məqsəd, təhlükəsizlik ehtiyacı bir nöqtədə birləşdirir və belə hallarda ictimai təhlükəsizliyin qorunmasında insanlıq, diqqət və məsuliyyət əsas rol oynayır.

Bu əməkdaşlıq modeli ictimai şüura vətəndaşın polislə birlikdə təhlükəni dərhal aradan qaldıra bildiyi mesajını da verir. Bir tərəfdə ayıq və diqqətli vətəndaş, digər tərəfdə operativ, çevik və etibarlı polis birliyi təhlükəsiz cəmiyyətin qarantıdır.

Cəmiyyətin gücü də elə bundan qaynaqlanır. Hər kəs öz payına düşən məsuliyyəti dərk etdikcə, polisə etibar artdıqca, polis də vətəndaşa dayaq olduqca təhlükəsizlik kimi formalaşır. Eyni ilə bu hadisədə olduğu kimi…

***Ş.Əfəndizadə***

# Unudulan cinayət yoxdur

## Açılan hər cinayət cəmiyyətə hansı mesajı ötürür?

Cinayətin üstünü açmaq hər zaman çətin və məsuliyyətli prosesdir. Bəzən ən adi oğurluq hadisəsində belə təqsirkarı tapmaq, həqiqəti üzə çıxarmaq üçün uzunmüddətli araşdırmalar, müxtəlif prosedurlar və hüquqi mərhələlərdən keçmək lazım gəlir. Bu mənada əvvəlki dövrlərdən bağlı qalan cinayətlərin açılması qat-qat artıq zəhmət və peşəkarlıq tələb edir. Çünki zaman keçdikcə sübutlar itə, izlər silinə, şahidlər hadisələrdəki təfərrüatları unuda bilər.

### Cəmiyyətə ictimai mesaj var

Elə buna görə, demək olar ki, hər gün əvvəlki dövrdən bağlı qalan cinayətlərin üstünün açılması ilə bağlı Daxili İşlər Nazirliyinin rəsmi media hesablarından verilən məlumatlar ilk olaraq polisin peşəkarlığından xəbər verirsə, digər tərəfdən də açıq-aydın ictimai mesajdır: unudulan cinayət olmur və cinayətkar əməlinə görə gec-tez cavab verir.

Bu, ən mühüm nəticədir. Təqsirkar tapılıb məsuliyyətə cəlb olunduqda qanun qarşısında bərabərlik prinsipi təsdiqini tapır. İnsanlar anlayır ki, kimliyindən, imkanlarından, ört-basdır etmək üçün nə qədər hiyləgər davranmasından asılı olmayaraq, cinayət edən mütləq bir gün müstəntiqin qarşısında boynu bükük dayanır.

### Zərərçəkən üçün ədalət

Belə hadisələrdə qarşı tərəf kimi nəzərlər, təbii ki, zərərçəkənlərin durumuna yönəlir. Onların vəziyyətinə psixoloji aspektdən yanaşdıqda cavabsız qalan sualların və ədalətin bərpa olunacağına dair şübhələrin sarsıdıcı nəticələrini xüsusi vurğulamağa gərək duymuruq. Sadəcə onu qeyd edək ki, cinayət açıldıqda ilk olaraq onlar mənəvi yükdən azad olur. Hadisənin maddi tərəfi, zərərin ödətdirilməsi isə istintaqın diqqətdə saxladığı, hətta rəhbərlik səviyyəsində keçirilən iclaslarda müzakirə edilən vacib məsələlərdəndir.

### Cəza labüd olanda ictimai təhlükəsizlik artır

Bağlı qalmış cinayətlərin açılmasının profilaktik əhəmiyyəti də kriminogen vəziyyətə ciddi təsir edəcək qədər yüksəkdir. Cinayətkarın məsuliyyətdən yayına bilmədiyini görən şəxsin eyni davranışı təkrar etmək ehtimalı azalır, yəni başqaları üçün də çəkindirici faktor yaranır. "Gec də olsa, tapacaqlar", tutacaqlar" düşüncəsi nəticə etibarı ilə cinayətlərin sayını tədricən azaldır və ictimai asayiş daha stabil olur.

Bunun polis–vətəndaş münasibətlərinə müsbət təsiri isə strateji mahiyyətdədir. Çünki bağlı qalmış cinayətlərin açılması ilə vətəndaşlarda polisə inam və güvəndən başqa, həm də hüquqi yola müraciət etmək mədəniyyəti güclənir. Azərbaycanda vətəndaşların hər hansı bir qanun pozuntusu ilə üzləşdikdə dərhal polisin "102" Xidməti-Zəng Mərkəzini yığması həm də bu hüquqi düşüncənin təzahürüdür. Deməli, ədalətin, hüququn, haqqın bərpası istiqamətində polisin atdığı addımlar bizi strateji məqsədlərimizə çatdırır.

# Görünməyən cəbhənin qəhrəmanları

## Narkotiklərə qarşı mübarizədə usanmaq yox, yorulmaq yox…

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Füzuli rayonu ərazisində keçirilmiş tədbir nəticəsində İran vətəndaşı 32 yaşlı Ehsan Kakavend iş başında saxlanılıb. Ondan tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş 41 kq marixuana və 2988 ədəd metadon həbi aşkarlanıb. İlkin sorğu zamanı həmin şəxsin narkotikləri İranın Parsabad şəhərindən ölkəmizə qaçaqmalçılıq yolu ilə keçirdiyi və Füzuli rayonunda deyiləcək ünvanlara yerləşdirməyi planlaşdırdığı məlum olub.

Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən isə əvvəllər məhkum olunmuş 42 yaşlı Orxan Qurbanov saxlanılıb. Onun idarə etdiyi "Land Rover" markalı avtomobilə baxış zamanı 17 kiloqram 330 qram narkotik vasitə olan marixuana aşkarlanıb.

Həyata keçirilən digər əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən daha 3 nəfər - 36 yaşlı Emin Bayramov, 42 yaşlı İlkin Əlizadə və tanışı 36 yaşlı Amil İbayev saxlanılıblar. Onlardan ümumilikdə 21 kiloqram marixuana və 2 kiloqram 809 qram heroin aşkarlanaraq götürülüb.

Saxlanılan şəxslər ifadələrində də narkotikləri paytaxt ərazisində satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktlarla bağlı başlanan cinayət işləri üzrə araşdırmalar davam etdirilir.

# Gələcəyin təhlükəsizliyi bu gündən formalaşdırılır

## Onların arzusu polis olmaqdır

Gənclərin Polis Akademiyasında təhsilə həvəsləndirilməsi məqsədilə növbəti tədbirlər Bakı şəhərinin Pirallahı rayonunda davam etdirilib. ümumilikdə 28 şagird Akademiyada təhsil almaq arzusunu bildirib.



Daha sonra Pirallahı RPİ-nin rəisi polis polkovniki Cümşüd İsmayılov Rayon Polis İdarəsinin əməkdaşlarının və Polis Akademiyasının şöbə rəisi polis polkovnik-leytenantı Ruslan Cəfərovun iştirakı ilə rayon ərazisində 6 orta məktəbdə təşviqat tədbirləri təşkil edilib.

Məktəblilərə Akademiyada təhsil mühiti, qəbul qaydaları, kursantların maddi və sosial təminatları, eləcə də xüsusi təyinatlı təhsil müəssisəsində oxumağın üstünlükləri barədə ətraflı məlumat verilib. Tədbirlərdə yuxarı sinif şagirdləri və onların valideynləri ilə görüş keçirib, sualları cavablandırıb və müraciətlərin qəbul qaydalarını izah edib.

Dekabrın 25-də isə Polis Akademiyasında "Açıq qapı" günü təşkil olunub. Tədbirdə iştirak edən şagirdlər tədris prosesi ilə tanış olub, kitabxana, idman zalları, "İnformasiya təhlükəsizliyi" fakültəsinin laboratoriyaları, təlim mərkəzi və yataqxananı gəziblər.

# Kiberpolisin uğurlu əməliyyatları silsiləsindən…

## Kriptovalyuta "milyonçuları" saxlanılıb

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi xarici ölkələrin polis orqanları ilə beynəlxalq hüquqi yardım və qarşılıqlı əməkdaşlıq çərçivəsində növbəti əməliyyat həyata keçirib.

Belə ki, xarici ölkələrin birində müxtəlif şəxslərə onlayn kriptovalyuta alqı-satqısı adı altında xüsusilə külli miqdarda ziyan vuran Azərbaycan vətəndaşları barədə kiberpolisə əməliyyat məlumatı daxil olub.

Həyata keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində əvvəllər də oxşar cinayətlərə görə Türkiyə və Rusiyada məhkum olunan Malik Guseinov və Mahmud Əsgərli saxlanılıblar.

Araşdırmalarla müəyyən edilib ki, M.Guseinov M.Əsgərli ilə birgə xarici ölkələrin birinin paytaxtında yerləşən ticarət mərkəzində ofis kirayələyib. Bir müddətdən sonra M.Guseinov saxta 600.000 ABŞ dollarını həmin ticarət mərkəzində yerləşən valyutadəyişmə məntəqəsinə təqdim edərək 600 min USDT kriptovalyutasının onun hesabına köçürülməsini istəyib. O, 1.000.000 manatdan çox dəyəri olan kriptovalyutanın hesabına keçdiyinə əmin olduqdan sonra həmin ölkəni tərk edib.

Faktla bağlı cinayət işi başlanılıb, M.Guseinov və M.Əsgərli barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

# Məişət səs-küyü:

## Qanunun tələbi bayram günlərində də dəyişmir

Səsin sərhədi başqasının dincliyi başlayanda bitir. Gecə yarısı şəhərin səssiz küçələrinə yayılan yüksək musiqi, səs siqnalı və qonşu binadan da eşidilən məişət səs-küyü ilk baxışda xırda narahatlıq kimi görünsə də, kiminsə bu narahatlığın arxasında insanların istirahət hüququ dayanır. Kimsənin yuxusu, dincəlmək ehtiyacı, ailə sakitliyi başqasının əyləncəsi naminə qurban verilə bilməz. Məhz buna görə qanun səsin sərhədini müəyyən edir və həmin sərhəd bayram günlərində də dəyişmir.

### Polis tədbir görür

Son günlər paytaxtın müxtəlif ərazilərində keçirilən nəzarət tədbirləri bunu açıq göstərdi. Gecə saatlarında fəaliyyət göstərən kafe və əyləncə məkanlarında aparılan baxışlar zamanı bir sıra obyektlərin səs rejimini kobud şəkildə pozduğu məlum oldu. Polis əməkdaşları yüksəksəsli musiqinin yayımını dərhal dayandırdı, obyekt sahibləri ilə izahedici söhbətlər aparıldı, protokollar tərtib olundu. Qayda pozuntularının təkrarı halında daha sərt tədbirlər görüləcəyi açıq şəkildə bildirildi. Bu vətəndaşların ardıcıl müraciətləri, haqlı narazılıqları əsasında həyata keçirilir.

Onu da xatırladaq ki, bayram günləri ərəfəsində yaşayış yerlərində, xüsusilə də çoxmənzilli binaların həyətində pirotexniki vasitələrdən istifadə belə səs-küyü daha da artırır. Vətəndaşları bayramı təhlükəsiz keçirməyə çağıran DİN-in pirotexniki vasitələrlə bağlı müraciətində qeyd edilirdi ki, pirotexniki, eləcə də yüksək səsyayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatlar mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar siyahısına daxil edilib və qanunla satışı qadağandır. Aşkar olunduğu təqdirdə dərhal satışdan çıxarılır və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

### Səs siqnalı “bayram atributu” deyil

İnsanların rahatlığını pozan səsə görə sürücülər də məsuliyyət daşıyır. Gecə saat 12-dən sonra yaşayış məntəqələrində avtomobildə musiqini yüksək səslə dinləmək, siqnalı “bayram atributu”na çevirmək ictimai asayişin pozulması deməkdir. Qanun bu kimi hallara imkan vermir və belə davranış nəqliyyat vasitəsinin saxlanılması üçün kifayət qədər əsas yaradır.

Bəzən sürücülər düşünür ki, bayramda səs də olar, şənlik də. Əlbəttə, bayram sevincdir, ancaq bu başqasının dincliyini pozduğu anda artıq qanun pozuntusuna çevrilir. Qaydalara əməl edilmədikdə hüquqi məsuliyyət qaçılmaz olur və ona görə polis bayram günlərində də təhlükəsizliyin, insanların bayramı hüquqları pozulmadan keçirmələri üçün keşik çəkəcək. Məişət səs-küyünə görə xəbərdarlıqdan tutmuş inzibati cərimələyədək müxtəlif tədbirlər tətbiq oluna bilər.

# Gözlərin kriminalistik analizi

## Baxışlar bəzən dildən daha çox danışır



İnsanlar danışarkən sözləri idarə edə bilər, bir məqsəd üçün uydurma hekayə qura bilərlər. Lakin gözlər aldatmır.

Göz hərəkətləri, baxışın istiqaməti, kontakt qurmaqdan qaçmaq, göz qırpma tezliyi - bunların hamısı insanın emosional vəziyyətinə işıq tutur. Polis təcrübəsində bu detallar çox böyük önəm daşıyır. Məsələn, bir şahid danışarkən gözlərini davamlı bir yerdə saxlayırsa, daha inandırıcı görünə bilər. Amma sual verildikdə baxışlarını gizlətmək, gözləri tez-tez başqa istiqamətlərə çevirmək, qaşların yüngülcə birləşməsi kimi qeyri-şüuri reaksiyalar şübhə doğura bilər. Bu səbəblə gözlər istintaq zamanı sözlərdən sonra gələn ən güclü göstəricilərdən biri sayılır.

Psixologiya elmi göstərir ki, baxış istiqamətləri insanın nə düşündüyü və hansı hissləri keçirdiyi barədə məlumat daşıya bilər. Məsələn, bir şəxs xatirələri təsəvvür edərkən baxışlarını sol yuxarıya yönəldə bilər, faktları və real hadisələri xatırlayarkən isə sağ yuxarıya baxa bilər. Bu fərqlər təcrübəli davranış analitikləri üçün şübhəli və ya uyğun olmayan cavabları müəyyənləşdirməkdə yardımçı olur. Hüquq-mühafizə orqanlarında bu üsul, xüsusilə dindirmə və ifadə götürmə mərhələsində istifadə olunur. Sözlərlə verilən cavablar ilə göz hərəkətlərinin uyğunluğu istintaqın etibarlılığını artıran mühüm amildir.

Məsələn, ABŞ Mərkəzi Kəşfiyyat Agentliyində, Federal Təhqiqat Bürosunda və Kanadanın təhlükəsizlik xidmətlərində bu üsul artıq illərdir ki, tətbiq olunur. Bir çox təhlükəsizlik əməkdaşı bu texnikanı sinir sisteminin verdiyi qeyri-şüuri siqnalları təhlil etmək üçün öyrənir. Bir nümunədə, ABŞ hava limanında şübhəli şəxsə adi sual verildikdə onun gözlərinin ani şəkildə genişlənməsi və dodaqlarının sərtləşməsi müşahidə olunub. Bu mikroreaksiyalar təhlükəsizlik əməkdaşının diqqətini çəkərək daha dərindən yoxlama aparılmasına səbəb olub və nəticədə bu şəxsdə daşınması qadağan olunmuş əşya aşkarlanıb. Belə hallar baxış analizinin real təhlükəsizlik tədbirlərində nə qədər əhəmiyyətli olduğunu göstərir.

### Baxışın ritmi və psixoloji mənası

Göz qırpma tezliyi də dərin psixoloji mənaya malikdir. Şəxs sual qarşısında güclü stress hiss edəndə daha çox və sürətli göz qırpır. Bu, sinir sisteminin təbii reaksiyasıdır. Eyni zamanda, baxışın davamlı şəkildə aşağı, yuxarı və yan istiqamətlərə yönəlməsi, danışanın özünü müdafiə etmə mexanizmi, yalana görə daxili narahatlıq və ya uyğunluq hissi kimi psixoloji halları əks etdirə bilər. Ona görə də, polis əməkdaşları belə incə detalları qeydə alaraq sualların bu müşahidələrə uyğun şəkildə tənzimləyə bilirlər.

### Göz analizinin rolu

İnsan baxışlarını sadəcə insan müşahidəsi deyil, artıq texnologiya da dəyərləndirir. Süni intellektlə təchiz olunmuş sistemlər videogörüntülərdə göz hərəkətləri, baxış istiqamətləri və göz kontaktının dəyişməsini çox qısa zaman intervalında dəqiq ölçə bilir. Belə sistemlər artıq bəzi ölkələrdə təhlükəsizlik kameraları ilə birləşdirilərək istifadə olunur. Bu da istintaq prosesində qeyri-şüuri davranış siqnallarını daha sistemli şəkildə toplamağa və təhlil etməyə imkan yaradır.

Beləliklə, baxışlar təkcə bir insanın üz ifadəsi deyil, gələcəyin kriminal analiz texnologiyasının da mühüm tərkib hissəsinə çevrilir.

Göz hərəkətləri və baxışlar səssiz, lakin çox güclü izah vasitəsidir. Söylənilməyənləri, gizlədilən hissləri açıq aydın ortaya qoymaqda, şübhəli davranışları aşkarlamaqda və istintaq prosesini dəstəkləməkdə vacib rol oynayır. Polis orqanlarının təlimlərində və real tədbirlərində bu üsul çox zaman düzgün qərarların alınmasına yardım etdiyinə görə, baxışlar sözlərdən sonra gələn “səssiz şahidlər” sayılır..

*A. Sadiqqızı*

# Gizli yazıların sirri

## Palimpsest - keçmişin izlərini oxuyan üsul



"Palimpsest" sözü qədim yunan dilindən götürülüb və “yenidən silinmiş” mənasını verir. Keçmişdə, xüsusilə də orta əsrlərdə yazı materialları çox bahalı və nadir olduğuna görə yazıçılar, ruhanilər və sənətkarlar istifadə etdikləri perqament və ya kağızların üzərindəki yazıları silərək həmin materialı təkrar istifadə edirdilər. Bu silinmiş yazıların yerinə yeniləri yazılırdı. Zaman keçdikcə elmi texnologiyaların inkişafı ilə həmin "gizlədilmiş" mətni yenidən oxumaq mümkün oldu. Beləcə, palimpsest texnikası yalnız tarixçilər üçün deyil, müasir hüquq-mühafizə orqanları üçün də vacib alətə çevrildi.

Palimpsest texnikası təkcə qədim əlyazmaları oxumaq üçün yox, həm də müasir cinayət işlərində vacib rol oynayır. Bəzən şübhəlilər sənədlərdəki yazıları pozaraq dəlilləri gizlətməyə çalışırlar. Məsələn, borc sənədində məbləği dəyişmək, tarixləri saxtalaşdırmaq və ya imzanın yerini dəyişdirmək cəhdləri buna nümunədir. Bu cür hallarda palimpsest texnikası, xüsusilə multispektral görüntüləmə və ya infraqırmızı işıqla analiz üsulları vasitəsilə həmin silinmiş və ya dəyişdirilmiş yazı qatlarını aşkar edir. Bu isə bəzən cinayətin açılmasında həlledici sübut olur.

Palimpsest texnikasının uğurla tətbiqində əsas rolu xüsusi cihazlar oynayır. Məsələn, multispektral kamera sənədin fərqli dalğa uzunluğundakı işıq altında necə göründüyünü araşdırır. İşıq müəyyən dalğalarda sənədin üst qatını keçərək alt qatdakı silinmiş yazıları daha aydın göstərir. Bu üsul xüsusilə silinmiş mürəkkəb və köhnə qrafit izlərinin, eləcə də mexaniki pozuntuların aşkarlanmasında təsirlidir. ABŞ, Almaniya, Böyük Britaniya və Yaponiya kimi ölkələrdə hüquq-mühafizə orqanları bu texnikanı sənəd saxtakarlığı ilə bağlı işlərdə tez-tez istifadə edirlər.

Palimpsest texnikasının tarixi dəyərlərin bərpasında da əhəmiyyətli rolu olub. Məşhur nümunələrdən biri Arximedin əsərlərinin bərpa olunmasıdır. Onun riyazi əsərləri üzərində dini mətnlər yazılmışdı, lakin müasir cihazlarla o yazılar oxunaraq elm dünyasında inqilabi bilgiləri ortaya çıxardı. Bu, bir daha sübut etdi ki, pozulmuş yazılar bəzən təkcə cinayəti deyil, tarixi də dəyişə bilər.

Cinayətkarlar bəzən sadəcə mürəkkəbi pozmaqla və ya sənədin üzərini yazmaqla dəlilləri yox etdiklərini düşünürlər. Amma palimpsest texnikası vasitəsilə hüquq-mühafizə orqanları həmin pozuntuların izlərini bərpa edərək gizlədilən mətnləri ortaya çıxara bilirlər. Bu, xüsusilə maliyyə cinayətləri, mülki mübahisələr və saxta vəsiyyətnamələr kimi hallarda çox dəyərli sübut rolunu oynayır..

*A. Tahirova*

# İlin qalibləri açıqlanıb

## DİN-in İdman Cəmiyyəti mükafatlandırılanlar sırasındadır

Dekabrın 23-də Gənclər və İdman Nazirliyi 2025-ci ilin idman yekunlarına həsr olunmuş qala mərasimi təşkil edib.

Tədbirdə idman təşkilatları və federasiyaların rəhbərləri, media nümayəndələri, tanınmış idmançılar, məşqçilər və idman ictimaiyyətinin üzvləri iştirak ediblər.




Mərasimdə il ərzində müxtəlif idman növləri üzrə keçirilən yarışların nəticələri ümumiləşdirilib və fərqlənən qurumlar mükafatlandırılıb. Ümumi nəticələrə görə Fövqəladə Hallar Nazirliyi, SOCAR və Daxili İşlər Nazirliyi xüsusi təltifə layiq görülüblər.

İlin ən yaxşı idman klubu nominasiyasında “Ocaq Sport” İdman Klubu birinciliyə sahib çıxıb. “Neftçi” İdman Klubu ilə yanaşı, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti də yüksək nəticələrinə görə mükafatlandırılıb.

“Ədalətli oyun” nominasiyası isə idmanda etik davranışa və nümunəvi münasibətə görə təqdim olunub. Bu kateqoriyada Azərbaycan Badminton Federasiyası, kanoe və avarçəkmə üzrə idmançı Azər İlyasov, eləcə də şahmatçı polis polkovnik-leytenantı Rauf Məmmədov mükafatla dəyərləndirilib.

# Kursantın gümüş medalı

## Taekvondo üzrə Çempionatda final yarışı



Azərbaycan Taekvondo Federasiyasının təşkilatçılığı ilə keçirilən taekvondo üzrə Respublika Çempionatı və Birinciliyində Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kursantı uğurla çıxış edib.

Dekabrın 24-dən 27-dək keçirilən yarışda ölkənin müxtəlif bölgələrini təmsil edən 72 komanda iştirak edib, ümumilikdə 542 idmançı öz gücünü sınayıb.

Polis Akademiyasının kursantı Nihad Həsənov 87 kq çəki dərəcəsində keçirilən görüşlərdə yüksək peşəkarlıq və əzmkarlıq nümayiş etdirərək final mərhələsinədək irəliləyib və yarışın yekununda Azərbaycan çempionatının gümüş medalına layiq görülüb.

# Yollar buz bağlayıbsa...

## Sürəti azalt, məsafəni saxla, qaydalara əməl et

Qarlı və buzlu havalarda yol şəraiti qəfil dəyişir və ən təcrübəli sürücüləri belə çətin vəziyyətdə qoya bilir. Ona görə də belə günlərdə sükan arxasına keçən hər kəs ilk növbədə səfərə çıxmazdan əvvəl hava proqnozunu və yolun mövcud vəziyyətini yoxlamalıdır. Xüsusilə dağlıq ərazilərə gedənlər unutmamalıdırlar ki, bu zonalarda buzlaşma daha tez yaranır və görünüş məsafəsi kəskin azalır.

Avtomobilin texniki sazlığı da həyati əhəmiyyət daşıyır. Təkərlərin mövsümə uyğun olması, əyləc sisteminin normal işləməsi, akkumulyatorun və işıq cihazlarının sazlığı təhlükəsiz hərəkətin əsas şərtlərindəndir. Şüşə yuyucu mayenin donmayan növdən seçilməsi, şüşələrin təmiz saxlanması və salonun buxarlanmasının qarşısının alınması sürücünün yolu daha yaxşı görməsinə kömək edir. Uzun səfərlər üçün çəndəki yanacağın yarıdan az olmaması, avtomobildə ehtiyat təkər, qaldırıcı qurğu və ilkin tibbi yardım çantasının olması da sonradan ciddi problemlərin qarşısını ala bilər.

Hər bir sürücü bilməlidir ki, qaydalara əməl etmək yalnız cərimədən yayınmaq üçün deyil, həyatımızı qorumaq üçündür.

POLIS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik